# Novruz bayramınız mübarək!


# DƏNİZ

Qəzet 1931-ci ilin aprelindən çıxır

19 mart 2015-ci il
№ 9-10 (8967)
Qiyməti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti


## Süfrələriniz bərəkətli, yolunuz açıq olsun!

Əziz həmkarlar!

Sizi – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin bütün işçilərini qarşıdan gələn, milli-mədəni sərvətlərimizin zənginliyini bütün dolğunluğu ilə ifadə edən Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, səadət və işlərinizdə uğurlar arzulayıram.

Novruz bayramı daşıdığı bütün məna və rəmzləri ilə xalqımızın tarixi-mədəni irsə bağlılığını nümayiş etdirərək, respublikamızın hər yerində böyük ruh yüksəkliyi ilə qeyd olunur.

YUNESKO tərəfindən bəşəriyyətin mədəni irs nümunələri siyahısına daxil edilməsi isə, insanlar arasında dostluq, qardaşlıq duyğularını gücləndirməklə, cəmiyyətdə əmin-amanlığın bərqərar olmasına zəmin yaradan Novruzun ən ali keyfiyyətləri özündə birləşdirdiyini bir daha təsdiq edir.

Novruz Azərbaycanın xoş gələcəyi, işıqlı sabahı və iqtisadi tərəqqisi naminə bizi yeni əmək qələbələrinə səsləyir. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın son illərdə bütün sahələrdə qazandığı misilsiz uğurlar, iqtisadiyyatımızın davamlı inkişafı, ölkənin hər yerində gedən geniş abadlıq-quruculuq işləri sevincimizə sevinc qatmaqla yanaşı, həm də hər birimizdə daha xoşbəxt gələcəyə dərin inam hissi oyadır.

Baharda dəniz yollarında da hərəkətin intensivliyi artır, yük axını çoxalır. Baharın bizə verdiyi bu imkandan səmərəli istifadə etməli, Xəzərdə yük daşınmasında öncül mövqeyimizi qoruyub saxlamalı, gündən-günə sərtləşən rəqabətdən üzüağ çıxmalıyıq. Buna isə Novruz bayramını mavi suların qoynunda qarşılayan dənizçilərimizin hünəri, fədakarlığı çatar.

Bu Baharın qədəmlərinin uğurlu olacağına, gündən-günə qüdrətlənən müstəqil dövlətimizə daha böyük nailiyyətlər gətirəcəyinə inanırıq.

Əziz həmkarlar! Arzu edirəm ki, qarşıladığımız Novruz hər birinizə səadət, xoşbəxtlik bəxş etsin. Eviniz işıqlı, süfrələriniz bərəkətli, yolunuz açıq olsun!

Bayramınız mübarək!

**Rauf VƏLİYEV,**
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri**

# XALQIMIZIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİ ÖZÜNDƏ YAŞADAN BAYRAM

**Əsrlər boyu Novruz bizim üçün təbiətin və ana torpağın oyanması, baharın gəlişi olmaqla yanaşı, həm də barış və saf niyyətlər bayramı olmuşdur. Bu əziz gündə xoşbəxt gələcək naminə Azərbaycan xalqına əbədi birlik və vətəndaş həmrəyliyi arzulayıram.**

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider**

**Novruz ənənələri dəyərlər sistemimizdə müstəsna yer tutmuş, xalqımızın təfəkkürünün ayrılmaz tərkib hissəsinə çevrilmişdir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



**Tarix boyu azərbaycanlılar zəngin ənənə və dəyərlərini, ritual və mərasimlərini, milli bayramlarını yaşadaraq yad təzahürlərdən hifz etməyə, milli kimliklərini, tarixi etnos kimi mövcudluqlarını qorumağa çalışmışlar. Azərbaycanda milli bayram kimi hər il yüksək səviyyədə qeyd olunan Novruz xalqın müqəddəs etiqadına söykənməklə, özündə böyük bədii-estetik, mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir.**

### BƏNÖVŞƏNİN ÜZÜNDƏN ÖP

Oyat yuxusundan, oyat torpağı,
Daşa da həyat ver, daşa da can ver.
Hanı ağacların yaşıl yarpağı?
Donmuş budaqlara nəfəs ver, qan ver,
Bahar, ay Bahar!

Çəmənə xalı sər, düzə ilmə vur,
Dağların başına tumar çək yenə.
Söyüdün saçını əllərinlə bur,
Quru kötüyün də ümidi sənə,
Bahar, ay Bahar!

Geyindir ormanın yaşıl donunu,
Hər pöhrə üstündə yarpaq kimi əs.
Bükməsin bənövşə elə boynunu,
Üzündən öpməyə özün də tələs,
Bahar, ay Bahar!

Səni gözləyirəm, səni nə zaman,
İndi sevinc kimi, səbrimiz azdı.
Uzandı bu qışın gedişi yaman,
Hələ ki, soyuğun işi tarazdı,
Bahar, ay Bahar!

Küsülü uşağa bənzəyir bağlar,
Bağçalar çiçəkçün qəribsəyibdi.
Doqquz ay gözlədik, bəsdir intizar,
Görüşmək vədəsi, vaxtı gəlibdi,
Bahar, ay Bahar!

Nə qədər zəmi var, dalğalı görüm,
Yenə bərəkətlə qoşa gəl, qoşa.
Yurduma hər dəfə gəlişin üçün
Sənə minnətdaram, ya qaranquşa?
Bahar, ay Bahar!

*Rasif İMANOĞLU*



**Novruz hələ qədim zamanlardan xalqımız tərəfindən yüksək səviyyədə qeyd olunmuş, təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlərin, xoş arzuların yarandığı vaxt və ya gün insanla təbiətin bütövləşməsi, harmoniyası sayılmışdır. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaratmışdır.**

Fəlsəfə tarixindən məlumdur ki, mifoloji bayramlar bir qayda olaraq təbiətlə, onun fəsilləri ilə bağlı olur və onlar da hər bir adamın həyatında çox mühüm rol oynayan hadisələrdir. Bununla yanaşı, belə bayramlar kollektiv yaddaşda reallaşaraq xalqlara öz qədim ənənələrini qoruyub saxlamağa, tarixi zamanın dayanmaz axınını müəyyən qədər ləngidərək əcdadlarının dövrünü, həyatını xatırlamağa imkan verir. Hazırda xalqımızın qeyd etdiyi bayramlardan heç birini ənənələrinə görə Novruzla müqayisə etmək mümkün deyildir. Minilliklər içərisindən keçib gələn bu

(Davamı 2-ci səhifədə)

# XALQIMIZIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİ ÖZÜNDƏ YAŞADAN BAYRAM

*(Əvvəli 1-ci səhifədə)*

qədim el bayramı tarix boyu çoxlu qadağalara və təqiblərə məruz qalsa da, öz təravətini və gözəlliyini indi də saxlayır. Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm hissəsini özündə ehtiva edən unikal mədəniyyət hadisəsidir. "Novruz"un tərkibi quruluşca mürəkkəb, məzmunca dərin və geniş əhatəlidir. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman, onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğu aydın görünür. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, Türkiyədə və Orta Asiya türk dövlətlərində Novruz mart aylarında bahar bayramı kimi qeyd olunur.





Novruz ilk növbədə dünyanın və insanın yaradılış bayramıdır. Onun epoxaları, xalqları, dinləri, qitələri əhatə edən kulturoloji-fəlsəfi əzəmətinin, milli böyüklüyünün əsasında varlıq aləminin yaradılışı haqqında mifioloji-kosmoqonik konsepsiya durur. Novruz özünün qlobal məkan və zaman coğrafiyasında heç vaxt ilkin yaradılış fəlsəfəsindən məhrum olmamış, dünyanın harasında, tarixin hansı dönəmində olursa-olsun təbiətin, insanın varlığını təzələmiş, yenidən yaradaraq yox olmaqdan qorumuşdur. Bu cəhətdən Novruz bayramı milli fəlsəfəsinə, kosmik mahiyyətinə görə insan və onun dünyasının yaradılış mexanizmidir. Cəmiyyətin dialektik hadisə kimi mövcudluğunun, inkişaf və təkamülünün üsuludur.

Yenidən yaradılış, milli özünütəşkil, etnik özünüdərk kompleksi olan Novruz bayramı öz gücünü Azərbaycan xalqının cismindən və ruhundan alır. Bu bayram bütün mahiyyəti etibarilə xalqımızın milli varlığı ilə bağlıdır. Hər bir xalqın yaşam gücü, özünüqoruma instinkti, özünümüdafiə immuniteti onun düşüncəsinin dərinliklərində bərqərar olan sakral energetikadan qaynaqlanır. Xalqın varlıq tarixinin başlanğıcından bu günədək, düşüncənin dərinliklərindən milli təfəkkür müstəvisinə qədər etnopsixoloji özünütəşkil mexanizmləri olan sakral energetikanın gücü ilə ötürülən bu milli enerjinin məzmunu və keyfiyyəti



xalqın tarix səhnəsindəki yerini, rolunu və taleyini müəyyən edir. Novruz bayramı milli mövcudluğu üçün hava və su kimi lazım olan energetikanın məkanlararası daşıyıcısı, zamanlararası ötürücüsüdür.

Novruz mərasim sistemi və ilkin semantikası etibarilə baharın gəlişi ilə harmoniyada gerçəkləşən insanın yaradılışı mifi ilə bağlıdır. Bu bayram Şərq xalqları tərəfindən rəsmi bayram kimi qəbul edilməsi tarixinə qədər müxtəlif mərhələlərdən keçə-keçə uzun bir yol qət etmişdir. Novruz mərasim kompleksində əsas olan dörd çərşənbə insanın dörd ünsürdən yaradılması haqqında dinimifik görüşlərini simvollaşdırır və öz mahiyyəti etibarilə ilkin yaradılış dialektikasını işarələyir.

İstər qədim türk, istərsə də islami yaradılış haqqında baxışlarda su ən əsas ünsürdür. Hətta yaradılışdan əvvəl bütün varlığın yalnız sudan ibarət olması haqqında qədim türk mifi də mövcuddur. Su çərşənbəsində xalq arasında bu gün də yaşadılan ayin və etiqadlar bu fikri təsdiq etməkdədir. İkinci çərşənbə - od çərşənbəsi insanın yaradılış prosesinin ikinci mərhələsini, od komponenti ilə bağlı mərhələnin mifik təzahürüdür. Mövcud tədqiqatlarda bayram ərəfəsi odla bağlı ritual və mərasimlərin aktiv varlığı daha çox odun sakral mahiyyəti

*(Davamı 3-cü səhifədə)*

### NOVRUZLA BAĞLI DEYİMLƏR

Novruzda od üstündən atlanan xəstəlik bilməz.
Novruzda su üstündən atlanan il boyu sağlam olar.
Novruz alqışı sayalı olar.
Novruzda qar yağanda il bərəkətli olar.
Novruzda söyüd ağacları başını əyəndə, onu görən arzusuna çatar.
Novruz günü toy eyləyənin bəxtinə qız düşər.
Novruzda ata övlad evinə baş çəksə, o ev bərəkətli olar.
Novruzda qohum evinə şirni göndərilsə, orada şirinlik olar.
Novruz günü doğulan uşağın bəxti yaxşı olar.

### NOVRUZ ALQIŞLARI

*Novruz mətləbini versin!*
*Novruz üzünə gülsün.*
*Novruz payı yeyəsən.*
*Ürəyin Novruz qədər qutlu olsun.*
*Novruzda bəxtin açılsın.*
*Novruz falın uğurlu olsun.*
*Novruz xonçan düşərli olsun.*
*Novruz günü şirni paylayarlar.*
*Novruz günü küsülülər barışar.*
*Novruz günü dalaşmazlar.*
*Novruz günü qapıya atılan papağı boş qaytarmazlar.*
*Novruz günü evə nərgiz gətirməzlər.*
*Novruz günü yalan danışmazlar.*
*Novruz günü ədavəti unudarlar.*

## YENƏ YAZ GƏLİR...

Artıq ilıq nəfəsi duyulur. Və nəfəsindən gəlişi bilinir. Bilinir ki, yurdumuza Bahar gəlir. Ətri ilə adamı bihuş edən, gözəlliyi ilə aşiqə çevirən, möcüzələri ilə heyrətə gətirən Bahar!

Gün-güzaranımız hər zaman bu ulu bayramın qədəmlərinin uğuruna güvənib. Bir aydan çoxdur ki, pişvazına hazırlaşırıq. Fevralın 24-dən başlanan çərşənbə axşamlarında sudan içərək, oddan keçərək, yeldə sərinlənərək, nəhayət, gəlib torpağa baş əydik.

Topa-topa buludların bir göz qırpımında yağışa dönüb çöllərə çilənməsi, mavi səmanın ənginliklərində örpəyə bənzəyən ləlеkvari pənbə buludların nazilə-nazilə yoxa çıxması, təbiətin hər saatda bir dona girməsi adamın ruhunu yerindən oynadır.

Qışın şaxtasından-soyuğundan bezən əkin-biçin adamları tarlalara tələsirlər. Bilirlər ki, baharın nəfəsi dəyəndən sonra torpağın sinəsində açdıqları şırımlardan çox keçməz ki, ruzu-bərəkət gəl-gəl deyəcək.

Hələ sular... Bircə ay öncə zəhmi adamın bağrını yaran suların hirsi xeyli yatıb, yerə-göyə meydan oxuyan dalğalar nəfəsini dərmək, bir az dincəlmək istəyir.

Ən əsası odur ki, Baharın isti nəfəsi dənizçilərə də əl-qol açmağa imkan verir.Ləngərli gəmilərdə yük daşıyan dənizçilər səfərləri-səfərlərə calamağa çalışırlar.



Minilliklər içərisindən keçib gələn bu qədim el bayramı hər addımda məruz qaldığı bütün qadağalara məharətlə sinə gərərək, müqəddəsliyini, saflığını, gözəlliyini qoruyub saxlaya bilmişdir. Keçmişimizlə öyünməyə, fəxr etməyə haqqımız var. Çünki xalqımızı milli-mənəvi dəyərlərindən döndərməyə, uzaqlaşdırmağa heç kimin - nə düşmənlərimizin, nə düşmənlərimizin dəyirmanına dəryalar qədər su tökənlərin, nə də zorən tərkibində yaşamağa məhkum edildiyimiz, bütün dünyaya meydan oxuyan nəhəng imperiyaların gücü çatmayıb! Onların həmısının ayrı-ayrılıqda və bir yerdə bütün səyləri puç olub, bütün cəhdləri boşa çıxıb! Əsrlərin sərt sınağından üzüağ çıxan xalqımız qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlılığını təcəssüm etdirən Novruza qucaq aça-aça, pişvazına çıxa-çıxa bu günlərə çatıb.

Rəsmən yasaq edildiyi dövrlərdə belə, xalq Novruzdan və onunla bağlı hər hansı bir mərasimdən imtina etməmiş, öz bayramının layiqincə keçirmişdir. Ərənliyini görən Novruz da borclu qalmamış, bütün gücü ilə Azərbaycan xalqının milli ruhunu qorumuş, yüksəltmiş, hər gələndə özünüdərkini gücləndirmiş, milli irsinə daha dərindən bağlanmasını təmin etmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə desək: "Novruz bayramı xalqımızın ən sevimli bayramlarındandır. Azərbaycan torpağında həmişə əziz tutulan bu bayramın verdiyi tükənməz mənəvi güc sayəsində biz yüz illərdən bəri keçmişimizin çətin və mürəkkəb dövrlərində nikbinliyimizi qoruyub saxlamış, gələcəyə daim ümidlə baxmışıq. Novruz ənənələrinin layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir. Ən ali bəşəri keyfiyyətləri özündə toplayan böyük mənəviyyat və hikmət xəzinəsi olaraq yaz bayramı tarixi-mədəni irsə bağlılığımızı parlaq nümayiş etdirir."

Yaz gəlir. Yaz həm də sinəmizin arzularımıza darlıq etdiyi fəsildir. Əminəm ki, bütün Azərbaycan xalqının ən böyük arzusu budur ki, möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində torpaqlarımız tezliklə erməni işğalından azad edilsin, qaçqınlarımız gələn il Novruz tonqalını öz ata-baba yurdlarında qalasınlar. Qalayacaqlar da!

Xoş gəlirsən, Bahar! Qədəmlərin mübarək, Novruzum!

***Rasif TAHİROV***

# XALQIMIZIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİ ÖZÜNDƏ YAŞADAN BAYRAM

*(Əvvəli 2-ci səhifədə)*

ilə əlaqələndirilmişdir. Yel çərşənbəsi də yaranış prosesinin üçüncü mərhələsini təşkil edir. Əgər torpaq və su insan yaradılışının materialını, maddi əsasını təşkil edirsə, od və yel bu materialın yaradılmasında kənar vasitəçi statusunda çıxış edir.

Sonuncu ilaxır çərşənbə isə torpaq çərşənbəsidir. Torpaq insan yaradılışının əsas maddi ünsürü olmaq etibarilə bu prosesdə son dərəcə əhəmiyyətli bir mövqeyə malikdir. Torpaq müqəddəsliyinin türk mifoloji görüşlərində, etnik-əxlaqi dəyərlər sistemində yurd, vətən, el-oba anlayışı ilə yanaşı, yaradılışın maddi əsası olmasından irəli gəlməklə müqəddəs mifoloji energetikaya da malikdir. Yazda torpağın oyanması mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Bu isə ilk növbədə insanın yaradılışı mifindən qaynaqlanır.

Müqəddəs Novruz minillərdir ki, insanları gəlişi ilə müjdələyir, onlara xeyir-bərəkət, bolluq, xoş həyat, firavanlıq bəxş edir. Məşəqqətli günlərə, sıxıntılı həyata son qoyub tükənən gücləri bərpa edir. İnsanların gözlərinə işıq, qollarına qüvvət, ayaqlarına güc verib, qəlblərini ümid və inamla doldurur. Tarix boyu zəhmət və halallıqla yaşayan xalqımız Novruzun gəlişini ruzu-bərəkət qapısının açılması kimi intizarla gözləmiş, bütün cismi və ruhu ilə onun həsrətində olmuşdur. Min illəri haqla-





yan Novruz intizarı milli mənəviyyatımızın simvoluna çevrilərək, Azərbaycan xalqını dünyada insanın, təbiətin vurğunu kimi tanıtmışdır.

Novruzun milli taleyimizdəki yerini, müstəqillik əldə etmiş gənc Azərbaycan Respublikasının dövlət quruculuğundakı məqamını, bir xalq, millət və dövlət kimi milli dirçəlişimizdəki rolunu məhz etnik özünütəşkil mexanizmi kimi dəyərləndirən Ulu öndər Heydər Əliyev bu bayramı milli ideologiyamızın ana sütunu kimi əbədiləşdirmişdir. Ümimmilli lider Heydər Əliyev Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qiymətləndirmişdir: “ Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir.”

Ulu öndər Novruzu “sevinc”, “həvəs” və “birləşmə” formulu kimi səciyyələndirmişdir. Müasir Azərbaycanın qlobal dünyanın siyasi labirintlərində etibarlı milli yol xəritəsini cızmış Ümummilli liderin bu sözləri milli ideologiyamızın təməl daşlarını, Azərbaycan insanının canı və qanı bahasına qurduğu dövləti necə qoruyub saxlaması haqqında fəaliyyət proqramının başlıca qayəsini təşkil edir. Bu anlamda, Novruz bayramının bizi “sevindirməsi” Azərbaycan xalqının milli dəyərlərlə yaşaması, “həvəsləndirməsi” milli dəyərlərdən güc alması, “birləşdirməsi” bir xalq kimi məhz milli dəyərlər əsasında təşkil olunması deməkdir.

Novruz bayramını müqəddəs milli irs hesab edən möhtərəm Prezidentimiz İlham Əliyev demişdir: “Novruz bayramı Azərbaycan xalqının ən əziz və sevimli bayramlarından biridir. Əsrlər boyu xalqımız bu bayramı qeyd etmişdir. Ancaq müstəqillik dövründə bu bayram rəsmi şəkildə qeyd olunur. Azərbaycan xalqı Novruz bayramına ən hərarətli münasibət bəsləyir, o bizim üçün ən başlıca, ən gözəl bayramdır... Ailə dəyərləri, bizim milli-mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim milli mədəniyyətimiz, tariximiz - bütün bunlar Azərbaycan xalqını qorumuşdur. Uzun illər, əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışdıq. Ancaq milli xüsusiyyətlərimizi itirməmişik. Assimilyasiyaya düçar olmamışıq, öz dilimizi, adət-ənənələrimizi, milli bayramlarımızı qoruyub saxlamışıq.”

Dövlətimizin başçısı Novruz bayramını birmənalı şəkildə milli xüsusiyyətlərin - milli varlığın qorunma vasitəsi hesab edir. Bu yanaşma çağdaş Azərbaycan dövlətinin artıq bütün dünyada böyük əks-səda verən mədəniyyət siyasətinin əsasını təşkil edir. Azərbaycanın təşəbbüsü ilə BMT-nin 2010-cu il 23 fevral tarixində 21 martı Beynəlxalq Novruz Günü elan etməsi də bu bayramın bəşəri miqyasda roluna yüksək önəm verdiyinə dəlalət edir.

BMT Baş katibinin Beynəlxalq Novruz Günü münasibətilə müraciətində (21 mart 2010-cu il) deyilirdi: ”Beynəlxalq Novruz Gününün qeyd edilməsi ilə bağlı Baş Assambleyanın bu il qəbul etdiyi qərar bu bayramın yalnız onun keçirildiyi regionda deyil, həmçinin bütün dünyada artan önəminin tanınmasının ən bariz nümunəsidir. Min illər boyu, günəşin ekvatoru keçməsi və şimal yarımkürəsinin yaz fəslinə qədəm qoyması ilə Balkan, Qara dəniz hövzəsi, Qafqaz, Mərkəzi Asiya, Yaxın Şərq və digər regionların xalqları özlərinə məxsus adət-ənənələrlə Novruz Gününü bayram edirlər. Evlərin yenidən rənglənməsi, dost-tanışların ziyarət edilməsi, simvolik yeməklərin hazırlanması kimi ayin və adətlərin yerinə yetirilməsi yenilənmə ruhu ilə zəngindir və bu, yalnız Novruzu qeyd edənlərə deyil, bütün insanlara ilham verərək ruhlandıra bilər.

Bu il ilk dəfə olaraq Beynəlxalq Novruz Gününü qeyd edirik. Ümid edirəm ki, dünyadakı bütün dövlətlər və xalqlar bu bayramın tarixi və ənənələrinə əsaslanaraq təbiətlə insan arasında olan harmoniyanı və bəşəri sülh və xeyirxahlıq ideyalarını təbliğ edəcəklər.”

Bəli, xalqımızın mənəvi mədəniyyətinin, etnik-mifoloji keyfiyyətlərinin müəyyənləşdirilməsində, qədim mifik görüşlərindən tutmuş, adət-ənənəsi, həyat haqqında düşüncələri barədə aydın təsəvvürlər əldə edilməsində Novruzun rolu olduqca əhəmiyyətli və əvəzsizdir. Dünyanın bir çox xalqları ilə bərabər, Azərbaycan xalqının milli-mənəvi varlığını bütün dolğunluğu ilə əks etdirən, ümumxalq səviyyəsində qeyd olunan, etnik təfəkkürün ümummilli universalizmini təmin edən mexanizm məhz Novruz bayramıdır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, “sürətlə dəyişən dünyamızda qloballaşma proseslərinin geniş vüsət aldığı bir zamanda Novruz bayramı daşıdığı bütün məna və rəmzləri ilə xalqımızın tarixi-mədəni irsə son dərəcə bağlı olduğunu parlaq nümayiş etdirir. Ən ali keyfiyyətləri özündə cəmləşdirən bayram kimi Novruzun YUNESKO tərəfindən bəşəriyyətin mədəni irs nümunələri siyahısına daxil edilməsi təqdirəlayiq haldır.”

**İlham MƏMMƏDZADƏ**



## *TORPAQ HAQQINDA DEYİMLƏR*

Torpaqdan pay olmaz.
Torpağa əyilən namərdə əyilməz.
Torpaq qızılquşdur, əldən buraxdın - uçar gedər.
Torpaqda əlləşən xoşbəxtliklə rastlaşar.
Torpaq əkinçinin zəhmətilə zinətlənər.
Torpaq deyər: öldür məni, dirildim səni!
Torpağa var versən, o da sənə bar verər.
Torpaq deyər: sən mənə tər ver, mən sənə zər verim!
Torpağa göz ağardanda üz ağardar.
Torpağa xor baxsan, o, sənə kor baxar.
Torpaq ovuclayan qızıl ovuclar.
Torpaq müqəddəsdir.
Torpaqla əlləşən ac qalmaz.
Torpağı bir yerdən götürülüb.
Torpağın qarası üz ağardar.
Torpağın sirrini əli torpaqda olan bilər.
Torpaqda itki olmaz,
Kötüksüz bitki olmaz.
Torpağa vaxtlı-vaxtında su ver, bəhrəsini gör.
Torpaq haqqı!
Yer haqqı!
Torpağı sanı yaşayasan!
Torpağın həmişə gül bitirsin!
Torpağın yada qismət olmasın!
Torpağından qara yellər əsməsin!
Torpağın həmişə bar yetirsin!
Torpağın bərəkətli olsun!
Torpağına göz dikənin gözü tökülsün!
Torpağını göz-bəbəyin kimi qoru!

***Toplayanı: Tahir DADAŞOV***

# "ZIĞ" GƏMİ TƏMİRİ ZAVODUNDA YENİ YEMƏKXANA İSTİFADƏYƏ VERİLDİ










**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində işçilərin məişət şəraitinin və rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.**

Martın 10-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti rəhbərliyinin iştirakı ilə "Zığ" Gəmi Təmiri Zavodunda yeni yeməkxana istifadəyə verildi.

Ümumi sahəsi 577 kvadratmetr olan, müasir avadanlıqlar və ləvazimatlarla, istilik və havalandırma sistemləri ilə təchiz edilmiş yeməkxanada eyni vaxtda 320 nəfər nahar edə bilər. Yeməkxananın xidmətindən gəmi təmirçiləri ilə yanaşı, Dəniz Nəqliyyatı Donanması və İstehsalat Xidmətləri İdarəsinin işçiləri, zavodda təmirə dayanan gəmilərin dənizçiləri də istifadə edəcəklər.

Sonra yeməkxananın qapıları nahar fasiləsinə çıxanların üzünə açıldı.Yeni iaşə obyektində hər şeyin ürəklərincə olduğunu isə onların üz-gözlərindəki təbəssümdən də sezmək çətin deyildi. Bu da sırr deyil ki, iş yerində diqqət və qayğı görənlər adətən daha həvəslə çalışırlar.

**Tahir DADAŞOV**

## XƏZƏRİN HÜQUQİ STATUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNƏ DAİR XÜSUSİ İŞÇİ QRUPUNUN İCLASI KEÇİRİLDİ

**"Xəzər dənizinin hüquqi statusu ilə bağlı danışıqların hazırkı mərhələsi yekun mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər."**




Bu fikri Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsinə dair Konvensiyanın hazırlanması ilə bağlı Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupunun martın 4-də Bakıda keçirilən 39-cu iclasının nəticələri barədə keçirilən mətbuat konfransında söyləyib. Nazir müavini konvensiya üzərində geniş müzakirələrin aparıldığını bildirib. "Nəzərə alsaq ki, bu, Həştərxan sammitindən sonra işçi qrupunun ilk görüşü idi, təbii ki, gündəlikdə olan əsas məsələ həmin sammitin nəticələri, dövlət başçıları tərəfindən əldə olunmuş razılaşmalar və qərarların həyata keçirilməsi idi. Bildiyiniz kimi, Həştərxan sammitində dövlət başçılarının qəbul olunmuş Birgə Bəyannaməsində Xəzər dənizinin bir çox prinsipial məsələlərinə dair vacib razılaşmalar əldə olunub və biz bu razılaşmaların konvensiya layihəsinin müvafiq müddəalarında əksini tapması üçün tədbirlər görmüşük. Bugünkü nəticələr bütün Xəzəryanı dövlətlərin nümayəndələri tərəfindən müsbət qiymətləndirilib. Konvensiya layihəsində vacib əhəmiyyət kəsb edən bir çox müddəalar üzrə razılaşmalar bütün nümayəndələr tərəfindən təsdiq olunub və bunlar konvensiya layihəsində əksini tapıb", - deyə X. Xələfov əlavə edib.

Bildirilib ki, həm Bakı, həm Həştərxan sammitlərindən sonra Xəzər dənizinin hüquqi statusuna dair bir çox vacib məsələlər öz həllini tapıb. Bunların içərisində su səthinin bölünməsi, hüquqi rejimlərin razılaşdırılması, təhlükəsizliyə, gəmiçiliyə aid məsələlər, bioloji resursların qorunması və istifadə olunması, fövqəladə hallar, hidrometereologiya ilə bağlı məsələlər həm konvensiya layihəsi, həm də imzalanmış bir çox sazişlər vasitəsilə Xəzəryanı ölkələrin əməkdaşlığını və fəaliyyətini təmin edir və tənzimləyir.

Hazırkı mərhələ yekun mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Əldə edilən razılaşmalar onu deməyə imkan verir ki, biz yaxın zamanda statusla bağlı məsələləri demək olar ki, bütün Xəzəryanı dövlətlər arasında razılaşdırıb başa çatdırmağa nail olcağıq. Həştərxan sammitində dövlət başçıları xüsusi qeyd etmişdilər ki, növbəti sammitə, yəni 2016-cı ildə Astanada keçiriləcək sammitə qədər konvensiya layihəsinin bütün maddələri tam razılaşdırılıb başa çatdırılsın və layihə bütün dövlətlər tərəfindən imzalansın.

Xəzər dənizinin hüquqi statusu ilə bağlı məsələlər, Xəzəryanı ölkələrin bu dənizdə fəaliyyəti və qarşılıqlı əməkdaşlıq məsələlərinin tənzimlənməsi bütün dövlətlər üçün əhəmiyyətlidir. Ona görə də bütün müzakirələrimizdə Xəzəryanı dövlətlərin buna səy göstərdiklərinin şahidi oluruq. Budəfəki müzakirələrin nəticələri də bunu bir daha sübut edir.

Diqqətə çatdırılıb ki, işçi qrupunun növbəti görüşü Tehranda keçiriləcək.

Nazir müavini deyib ki, artıq 20 il ərzində aparılan müzakirələr yaxın zamanda yekun razılığın əldə olunmasına münbit şərait yaradacaq. Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyanın əksər maddələri, demək olar ki, ümumilikdə 80 faizə qədər razılaşdırılıb. Bu maddələr üzrə detalların razılaşdırılması üçün də Astana sammitinə qədər işçi qrupunun görüşləri davam etdiriləcək.

Təhlükəsizlik məsələləri də vacibdir. Xəzər dənizində qarşılıqlı etimadın, bütün ölkələrin təhlükəsizlik məsələlərində imkanlarının artırılması, dövlətlər arasında əməkdaşlığın möhkəmlənməsi istiqamətində bir çox müddəalar layihədə öz əksini tapıb. Əlbəttə, tam razılaşmanın əldə olunması üçün növbəti görüşlərdə bu məsələlər diqqət mərkəzində olacaq.

## "BAKI-2015" BİRİNCİ AVROPA OYUNLARININ MEDALLARI DA GÖZ OXŞAYACAQ



**Martın 4-də "Fairmont Baku" hotelində təşkil edilən tədbirdə birinci Avropa Oyunlarının medalları ictimaiyyətə təqdim olunub.**

Bakı-2015" Avropa Oyunlarının əməliyyatlar üzrə baş icraçı direktoru Saymon Kleq mötəbər yarışa hazırlığın yüksək səviyyədə aparıldığını bildirib. Qeyd edib ki, Avropa Oyunlarının biletləri aprelin əvvəlində satışa çıxarılacaq. "Bakı-2015"in açılış mərasimi üçün biletlər 20-200, bağlanış mərasimi üçün 10-100 manat olacaq. Heydər Əliyev adına İdman Arenasına və Milli Gimnastika Arenasına biletlərin qiyməti 2 manat təşkil edəcək. Digər idman obyektlərində təşkil olunacaq yarışların seçim mərhələsi üçün biletlər 2-3, final mərhələsi üçün isə 5 manata satılacaq. Biletlər şəxsiyyət vəsiqəsi ilə satılacaq.

On altı yaşdan aşağı uşaqlar Avropa Oyunlarını pulsuz izləyə biləcəklər.

Azərbaycanı Avropa Oyunlarında 500 nəfərlik heyət təmsil edəcək. Bunlardan 295-i idmançı, 155-i isə texniki heyətdir. İdmançılardan 166-sı kişi, 129-u isə qadındır.

Sonra Avropa Oyunlarının medalları nümayiş olunub. "Bakı-2015" brendinə uyğun hazırlanmış və üzərində dekorativ təsvirlər əks olunan medallar 380 qramlıqdır. Medalların tərtibatı "Soçi-2014" Qış Olimpiya və Paralimpiya Oyunlarının medallarını hazırlamış məşhur zərgərlik brendi "Adamas" ilə azərbaycanlı rəssam Nərgiz Hüseynovaya məxsusdur. Medallar "Azərsuvenir" şirkəti tərəfindən Azərbaycanda istehsal ediləcək.

Qeyd edək ki, bu il iyunun 12-dən 28-dək Azərbaycanın ev sahibliyi edəcəyi birinci Avropa Oyunlarının proqramına 20 idman növü daxil olub. Avropadan 6 mindən çox idmançı 17 gün ərzində yarışların mükafatları uğrunda mübarizə aparacaq.



# XƏZƏRDƏ MÜVƏQQƏTİ GERİÇƏKİLMƏLƏR

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaydığı sənədə əsasən, Xəzər dənizində suyun səviyyəsi enməkdədir. Hətta son yeddi ildə səviyyənin 56 sm endiyi bildirilir. Maraqlıdır ki, zaman-zaman dənizdə baş verən tərəddüdlər - su səviyyəsinin aşağı düşməsi və qısa vaxtdan sonra təkrarən yüksəlməsi adi hala çevrilib.***

***Bu səbəbdən də haqqında söz açmaq istədiyimiz tərəddüdləri yaradan amilləri nəzərdən keçirmək istədik. Birincisi, dəniz səviyyəsinin dəyişməsində başlıca amil iqlim şəraitidir. Belə ki, Xəzər dənizinin su balansının gəlir hissəsinin təqribən 80 faizini təşkil edən Volqa, Ural, Samur, Kür, Terek, Səfidrud və digər çayların hövzələrində baş verən iqlim tərəddüdləri suyun səviyyəsinin artıb-azalmasına əhəmiyyətli dərəcədə təsir göstərir.***



## TARİXİ TƏRƏDDÜD

Azərbaycanda dəniz səviyyəsi üzərində müşahidələrə 1830-cu ildə yaradılmış Bakı məntəqəsində başlanılıb. Hazırda Xəzərin Azərbaycana aid hissəsində (sahildə, açıq dənizdə, adalar və estakadalarda) rəsmən 13 hidrometeoroloji müşahidə məntəqəsi fəaliyyət göstərir. Bunların da 7-də dəniz səviyyəsinin ölçülməsi məqsədilə müşahidələr aparılır.

Tarixdən məlumdur ki, Xəzər dənizi heç də həmişə indiki səviyyədə olmayıb. Son 3,5 min il ərzində dənizin səviyyəsinin dəyişməsi 15 metr, son 200 ildə 3,5 metr təşkil edib. Qədim xəritələri nəzərdən keçirsək, Xəzər dənizinin suyunun səviyyəsi müxtəlif dövrlərdə müxtəlif cür təsvir edilib. Hətta fərziyyəyə görə, eramızdan əvvəl ikinci minilliyin ortalarında Xəzər dənizində suyun səviyyəsi o qədər yüksək olub ki, Kür-Araz ovalığı suyun altında qalıb. Yeri gəlmişkən, məşhur rus alimi A. B. Şnitnikov 1957-ci ildə çap etdirdiyi məqalədə bu fikri təsdiqləmişdi.

Onu da qeyd ki, Xəzərdə suyun səviyyəsi 1910-cu ildə ən yüksək həddə olub. Məlumata əsasən, o vaxt dənizin səviyyəsi Baltik dənizinin su səthi ilə müqayisədə 26,3 metr aşağıdaymış və təbii ki, suyun səviyyəsi yüksək olduğu üçün bütövlükdə dənizin sahəsi də genişlənərək təxminən 406 min kvadratkilometrə çatıb. Ancaq 10 il ərzində suyun səviyyəsi metr yarım aşağı düşüb (-27,80) və dənizin sahəsi 16 min kvadratkilometrdən çox azalıb (389 min kvadratkilometr). 1920-1930-cu illərdə isə suyun səviyyəsi yenidən 70 sm yüksəlib və indiyədək həmin həddə çatmayıb. Nəticədə Xəzərin sahəsi 398,5 min kvadratkilometrə çatıb.1930-cu ildən başlayaraq 1977-ci ilədək 50 il ərzində dənizdə tədricən enmə müşahidə olunub. Ancaq 1977-1995-ci illər arasında su 2,5 metr artaraq - 26,5 metrə çatıb. 1995-ci ildən başlayaraq isə dənizin səviyyəsində yenidən enmə müşahidə olunmaqdadır. Təkcə son yeddi il ərzində səviyyə 56 sm azalıb və 2014-cü il üçün dəniz səviyyəsinin orta illik qiyməti Baltik sistemi ilə - 27,43 metr olub. Belə demək olarsa, 1977-ci ildən sonrakı dövrdə suyun səviyyəsi ildə 15 sm artmaqdadır.

## XƏZƏRİ TANIYAQ

Xəzər Yer kürəsində ən böyük göldür. Avropa ilə Asiyanın kəsişməsində yerləşir. Dibində okean tipli yer qatı yerləşdiyinə və dəniz ölçülərinə malik olduğuna görə, dəniz adlanır. Axmaz olduğundan tərkibində duz 0,05 faiz, Volqa çayının deltasında isə hətta 1-3 faizdir. Suyun səviyyəsi dəyişkəndir, hazırda okean səviyyəsindən təqribən 28 metr aşağıdır. Onun başqa iri su hövzələrindən əsas fərqi dünya okeanı ilə birbaşa əlaqəsinin olmamasıdır.

Xəzərin sahəsi 380 min kvadratkilometr, sahil xəttinin ümumi uzunluğu 6380, ən uzun yeri 554 kilometr, ən dərin yeri isə 1025 metrdir.

## AYLARIN VƏ ÇAYLARIN TƏSİRİ

Dənizin səviyyəsi həm də aylar üzrə dəyişmələrə məruz qalır. Səviyyə ən yüksək həddə iyun-avqust aylarında, ən aşağı həddə isə dekabr-fevral aylarında çatır. Həmçinin uzunmüddətli əsən küləklərin təsiri nəticəsində səviyyədə suqovma və çəkilmə ilə bağlı dəyişmələr də baş verir. Bu proses, xüsusilə, Şimali Xəzərdə özünü göstərir. Burada güclü cənub-şərq küləklərində suqovma 4,5 metr, çəkilmə isə 2,5 metrə çata bilər.

Regional iqlimin dəyişməsinə əsaslanan proqnozlara görə, 2020-ci ilədək Xəzər dənizinin səviyyəsinin 70-80 sm artacağı ehtimal edilir.

Dənizin səviyyəsinin dəyişməsində Xəzərə tökülən çaylar da az rol oynamır. Yeri gəlmişkən, Xəzərə iri-xırdalı 130 çay tökülür ki, bunlardan da ən irisi Volqa çayıdır. Hesablamalara görə, dənizə axan çay sularının 80 faizi məhz Volqanın payına düşür. Bundan başqa, Kür 6 faiz, Ural çayı 5 faiz su axıdır. Digər 3 çay - Terek, Sulak və Samur da toplam 5 faiz su kütləsini özündə cəmləyir. Qalan 4 faiz suyu isə dənizə İran, Azərbaycan və Rusiyadakı (Dağıstan) kiçik çaylar axıdır. Məlumat üçün bildirək ki, Xəzər dənizinə şərq sahilindən heç bir çay tökülmür.

## QLOBAL İSTİLƏŞMƏ AMİLİ

Dənizdə səviyyənin yüksəlməsinə kənar təbii təsirlərdən söz düşəndə, proseslərə qlobal istiləşmə müstəvisində baxmaq daha doğru olardı. Əlbəttə, havanın qızması nəticəsində qütblərdəki buzlaqların əriməsinin Xəzərə birbaşa təsiri duyulmayacaq, amma Yer kürəsini əhatə edən böyük su dövranı kimi vacib prosesi unutmaq olmaz. Hava qızırsa, deməli dünya okeanında suyun buxarlanması da sürətlənəcək. Bu isə o deməkdir ki, Volqa kimi təxminən 3,5 milyon kvadratkilometr sutoplayıcı sahəyə Atlantik okeanı üzərindən gələn hava kütləsi də rütubətlə doymuş olacaq. Məsələ ondadır ki, onsuz da Volqa çayının sutoplayıcısı kifayət qədər rütubətliərazidir. Əraziyə daxil olan yağıntının miqdarı artdıqca isə, deməli kondensasiya nəticəsində çaylarda suyun səviyyəsi də yüksələcək və sonda artmış su kütləsi məhz Xəzərə axacaq. Deyə bilərik ki, bu yolla dənizdə suyun səviyyəsi yüksələ bilər. Amma bu da həqiqətdir ki, temperaturun yüksəlməsi İranda və Xəzərin şərq sahillərində quraqlığı artıracaq. Bu halda isə quraqlıq artan yerlərdə azalan su axını Volqanın gətirdiyi artıq su kütləsini balanslaşdıracaq. Təbii ki, bu da Xəzərdə suyun səviyyəsinin ifrat yüksəlməsi təhlükəsini aradan qaldıracaq, amma əvəzində bu günədək müşahidə etdiyimiz tərəddüd tendensiyasını davam etdirəcək.

Bəs hazırda Xəzərdə səviyyənin enməsini sürətləndirən amillər hansılardır? Çox güman ki, bu, ötən il bölgəmizdə, o cümlədən Azərbaycanda kəskin quraqlığın keçməsi ilə bağlıdır. Yadınızdadırsa, ötən il quraqlıq o qədər güclü keçdi ki, kiçik çaylar tamam qurudu. Bu proses Azərbaycanla yanaşı, Rusiyanın Xəzərətrafı vilayətlərində, Mərkəzi Asiyada və İranda da davam edəcək. Təbii ki, paralel olaraq dənizin özündə suyun buxarlanması da sürətlənmişdi və sonda səviyyə xeyli endi. Onu da deyək ki, Volqa kimi iri çayın dənizə axıtdığı su kütləsinin həcmi təxminən 33 faiz azalıb.

## QAZANCI NƏ, ZİYANI NƏ?

Dəniz səviyyəsinin enməsinin müsbət və mənfi cəhətləri nədir? Səviyyənin enməsi o deməkdir ki, sahil genişlənir. İkinci tərəfdən, dənizə tökülən çaylarda, məsələn Kürdə yaz aylarında daşma riski azalır. Çünki dənizdə səviyyə endikdə ora axan çaylarda suyun axın sürəti artacaq.

Amma fəsadlar daha böyük ola bilər. Çünki dəniz geri çəkildikcə, ilk növbədə sahil infrastrukturu ziyan görəcək. Məsələn, gəmilərin limanlara daxil olması çətinləşəcək və sair.Yeni limanların tikintisi, ən azından limana daxil olan yeni sualtı kanalların qazılması isə həm vaxt, həm də böyük vəsait tələb edəcək. Bu baxımdan ən yaxşısı odur ki, təbiət özü-özünü tənzimləsin və bu təbii qanunauyğunluğa sözsüz tabe olaq.

**Vüsal TAĞIBƏYLİ**

# "Xəmsə" Milli İntellektual Oyunu üzrə I akademiya turniri





**Azərbaycan Dövlət Dəniz Akademiyasında tələbələr arasında "Xəmsə" Milli İntellektual Oyunu üzrə I akademiya turniri keçirilib.**

Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı, "Xəmsə" Milli İntellektual Oyununun və "Dənizçi" İntellektual Klubunun dəstəyi ilə baş tutan turnirin məqsədi gənclərin intellektual səviyyəsi, biliyi və dünyagörüşünü artırmaq, Azərbaycanın zəngin mədəniyyəti və tarixini təbliğ etmək, gənclərin asudə vaxtlarının səmərəli təşkilinə nail olmaqdır.

Turnirdə hər biri 5 nəfərdən ibarət olmaqla 12 komanda bilik və bacarığını nümayiş etdirib.

"ADDaTROPHY" komandası bilik sınağında daha uğurlu nəticə göstərmişdir. Qələbənin təminatında yəqin təcrübə də az rol oynamayıb. Axı "ADDaTROPHY" komandasının kapitanı Orxan Hüseynov və Oqtay Süleymanzadə "Dənizçi" İntellektual Klubunun üzvləridir və onlar İctimai TV-də yayımlanan "Xəmsə" Milli İntellektual Oyununda Azərbaycan Dövlət Dəniz Akademiyasını təmsil ediblər.

"Land of Fire" komandası ikinci, "Dream Team" komandası isə üçüncü yeri tutmuşdur.

Sonda qaliblərə diplom və medallar təqdim edilib.

# Dənizlərə gözəllik verən gəmilərimiz






*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Исторические воды — Tarixi sular
### HISTORICAL SEA

Морские воды, которые в соответствии с международно-правовой доктриной и практикой государств в определенных случаях могут быть объявлены внутренними водами в силу исторически сложившихся правовых оснований. Такими основаниями могут быть те же особые условия, что и для исторических заливов. Помимо заливов историческими могут объявляться воды небольших морей, бухт, губ, лиманов, проливов и др. при условии, что их берега принадлежат одному государству. В отличие от института исторических заливов, концепция исторических вод конвенционного закрепления не получила.

Beynəlxalq hüquqi doktrinaya və dövlətlərin praktikasına müvafiq olaraq tarixən formalaşmış hüquqi əsaslara görə, müəyyən hallarda daxili sular elan oluna bilən dəniz suları. O xüsusi şərtlər ki tarixi körfəzlər üçündür, həmin şərtlər belə əsaslardan ola bilər. Körfəzlərdən başqa, sahilləri bir dövlətə məxsus olmaq şərti ilə kiçik dənizlərin, buxtaların, dar körfəzlərin, limanların, boğazların və s. suyu da tarixi elan oluna bilər. Tarixi körfəzlər institutundan fərqli olaraq, tarixi sular konsepsiyası konvensiyalarda təsbit edilməmişdir.

### Исторические заливы — Tarixi körfəzlər
### HISTORICAL GULFS

Заливы, которые в соответствии с действующим международным правом могут быть включены во внутренние воды прибрежного государства в силу исторически сложившихся правовых оснований, вне зависимости от ширины их естественного входа. Остальные заливы могут быть объявлены внутренними водами только при ширине их входа не более 24 миль. Основаниями для объявления заливов историческими являются их особые условия (исторические, экономические, географические, оборонные и др.), включая длительную принадлежность к территории данного государства. Берега исторического залива, как правило, принадлежат одному государству (напр. залив Петра Великого - Россия, Гудзонов залив - Канада, Бристольский залив - Великобритания и т.п.), но есть и исключения (напр. Залив Фонсека - Сальвадор, Гондурас, Никарагуа, залив Ла-Плата - Уругвай и Аргентина).

Qüvvədə olan beynəlxalq hüquqa müvafiq olaraq tarixən formalaşmış hüquqi əsaslara görə, təbii girişlərinin enindən asılı olmayaraq, sahilyanı dövlətin daxili sularına aid edilə bilən körfəzlər. Qalan körfəzlər yalnız onların girişinin eni 24 mildən çox olmadıqda daxili sular elan edilə bilər. Körfəzlərin xüsusi şəraitləri (tarixi, iqtisadi, coğrafi, müdafiə və s.), müəyyən dövlətin ərazisinə uzunmüddətli mənsubluğu da daxil olmaqla, onların tarixi elan olunması üçün əsasdır. Tarixi körfəzin sahilləri, bir qayda olaraq, bir dövlətə məxsus olur (məsələn, Böyük Pyotr körfəzi - Rusiya, Qudzon körfəzi - Kanada, Bristol körfəzi - Böyük Britaniya və s.), ancaq istisnalar da mövcuddur (məsələn, Fonsek körfəzi - Salvador, Honduras, Nikaraqua, La-Plata körfəzi - Uruqvay və Argentina).

### Исходная линия нормальная — Normal çıxış xətti
### NORMAL INITIAL LINE

Указанная на официально признанных государством морских картах крупного масштаба линия наибольшего отлива вдоль берега или осушки, расположенной полностью или частично от материка или острова на расстоянии, не превышающем ширины территориального моря. Применительно к атоллам или островам с окаймляющими рифами исходной линией нормальной служит обращенная к морю линия рифа при наибольшем отливе. При определении внешней границы территориального моря частью берега считаются наиболее выдающиеся в море постоянные портовые сооружения. В ряде случаев исходной линией нормальной могут служить прямые, соединяющие соответствующие точки на побережье.

Dövlət tərəfindən rəsmən tanınmış irimiqyaslı dəniz xəritələrində göstərilən dəniz suyunun daha çox dövraşırı çəkilməsinin baş verdiyi sahil, yaxud ərazi dənizinin enindən artıq olmayan məsafədə materikdən və ya adadan tam və ya qismən aralıda yerləşən quru boyunca xətt. Mərcan adalarına (atollara) və ya sualtı qayalarla dövrələnmiş adalara tətbiq edilə bilən normal çıxış xətti kimi suyun daha çox çəkildiyi zaman dənizə yönəlmiş sualtı qayaların xətti götürülür. Ərazi dənizinin xarici sərhədini müəyyənləşdirərkən, dənizdə daha çox irəlidə olan daimi liman qurğuları sahilin bir hissəsi hesab edilir. Bir sıra hallarda normal çıxış xətləri rolunu sahildəki müvafiq nöqtələri birləşdirən düz xətlər oynaya bilər.

### Исходная линия прямая — Düz çıxış xətti
### STRAIGHT INITIAL LINE

Прямая линия, соединяющая законодательно установленные прибрежным государством точки на выдающихся в море оконечностях его побережья (включая островa). В соответствии с международным правом и.л.п. используется для отсчета ширины территориального моря и др. морских пространств прибрежного государства: когда береговая линия глубоко изрезана и извилиста; вдоль берега и в непосредственной близости к нему имеется цепь островов; из-за наличия дельты или других природных условий береговая линия крайне непостоянна; имеется залив, берега которого принадлежат одному государству. В этих случаях определенные точки на берегу соединяются прямыми линиями. В устьях рек, непосредственно впадающих в море, и.л.п. является прямая, соединяющая соответствующие наибольшему отливу точки на противоположных ее берегах. Прибрежное государство обязано надлежащим образом опубликовать карты с нанесением на них и.л.п. или границами, определенными на их основе, либо соответствующие перечни географических координат и сдавать на хранение их копии Генеральному секретарю ООН.

Sahilyanı dövlətin qanunvericiliklə müəyyənləşdirdiyi, onun dənizdə daha çox irəliyə çıxmış sahil qurtaracaqlarındakı (adaları daxil etməklə) nöqtələri birləşdirən düz xətt. Beynəlxalq hüquqa müvafiq olaraq düz çıxış xətti aşağıdakı hallarda sahilyanı dövlətin ərazi dənizinin və digər dəniz məkanlarının eninin hesablanması üçün istifadə edilir: sahil xətti dərin girintili-çıxıntılı və əyri-üyrü olduqda; sahil boyunca və bilavasitə onun yaxınlığında adalar silsiləsi olduqda; deltanın və ya digər təbii şəraitin mövcudluğundan sahil xətti son dərəcə qeyri-sabit olduqda; sahilləri bir dövlətə məxsus körfəz mövcud olduqda. Bu hallarda sahildə müəyyənləşdirilmiş nöqtələr düz xətlərlə birləşdirilir. Bilavasitə dənizə tökülən çayların mənsəblərində düz çıxış xətti onun qarşı sahillərində suyun ən çox çəkilməsinə uyğun gələn nöqtələri birləşdirən düz xətt hesab edilir. Sahilyanı dövlət düz çıxış xətlərinin və ya onların əsasında müəyyənləşdirilən sərhədlərin göstərildiyi xəritələri, yaxud coğrafi koordinatların müvafiq siyahılarını lazımi qaydada dərc etməyə və onların surətlərini saxlanılması üçün BMT-nin Baş katibinə verməyə borcludur.

### Исходные линии — Çıxış xətləri
### INITIAL LINES

Линии, от которых отмеряется ширина территориального моря (территориальных вод), прилежащей зоны и исключительной экономической зоны прибрежного государства. Те же исходные линии применяются для установления внешней границы континентального шельфа. Различаются исходные линия нормальная и исходная линия прямая.

Çıxış xətləri o xətlərdir ki, onlardan sahilyanı dövlətin ərazi dənizinin (ərazi sularının), bitişik zonanın müstəsna iqtisadi zonanın eni ölçülür. Kontinental şelfin xarici sərhədinin müəyyənləşdirilməsi üçün də elə bu çıxış xətləri tətbiq edilir. Normal çıxış xətti ilə düz çıxış xətti fərqləndirilir.

## K

### Каботаж — Kabotaj
### COASTAL TRADE

Плавание между портами, расположенными на территории одного государства. Различают большой каботаж - перевозка между портами, расположенными на различных морях, и малый каботаж - перевозки между портами, расположенными в пределах одного моря.

Bir dövlətin ərazisində yerləşən limanlar arasında üzgüçülük. Müxtəlif dənizlərdə yerləşən limanlar arasında daşınmalar - böyük kabotaj ilə bir dənizin hüdudlarında yerləşən limanlar arasında daşınmalar - kiçik kabotaj fərqləndirilir.

### Канвассер — Kanvasser
### CANVASSER

Брокер, «продающий тоннаж под грузы» от имени своего принципала, имея постоянный или временный контракт с экспортерами грузов или их агентами. Он предлагает и, как правило, старается убедить их грузить свои грузы на суда судоходной компании, интересы которой он представляет. Если в какой-либо фирме поле деятельности брокерского бизнеса обширно, она может иметь канвассерский отдел. В этом случае один из кан-вассеров руководит отделом. Канвассер должен обладать определенными деловыми качествами. Он должен быть представительным, профессионально грамотным, интересным собеседником, коммуникабельным, выдержанным, вежливым, с тем чтобы всегда поддерживать хорошие отношения с партнерами.

Yüklərin ixracatçıları və ya onların agentləri ilə daimi və ya müvəqqəti kontrakta malik olmaqla, öz sahibkarı (prinsipalı) adından «yük üçün tonnaj satan» broker. O, həmin şəxslərə yüklərini mənafeyini təmsil etdiyi gəmiçilik şirkətinin gəmilərinə yükləməyi təklif edir və bir qayda olaraq, onları buna inandırmağa çalışır. Əgər hər hansı bir firmada broker biznesinin fəaliyyət meydanı genişdirsə, həmin firma kanvasser şöbəsinə malik ola bilər. Bu halda kanvasserlərdən biri şöbəyə rəhbərlik edir. Kanvasser müəyyən işgüzar keyfiyyətlərə malik olmalıdır. O, nüfuzlu, peşəkarlıq baxımından savadlı, maraqlı həmsöhbət, ünsiyyətcil, təmkinli, nəzakətli olmalıdır ki, tərəfdaşlarla həmişə yaxşı münasibətlər saxlaya bilsin.

### Канцеллинг — Kanselling
### CANCELLING

Конечная дата, к которой судно должно быть подано фрахтователю, который в случае несвоевременной подачи судна к этой дате имеет право расторгнуть договор фрахтования (канцелировать чартер). Некоторые проформы чартеров предусматривают возможность продления срока канцеллинга по соглашению сторон и обязанность фрахтователя - сообщить о своем решении в течение определенного срока до прихода судна в порт.

Gəminin fraxtedənə verilməli olduğu son tarix, bu tarixə gəmi verilmədikdə fraxtedən fraxtetmə müqaviləsini pozmaq (çarteri ləğv etmək) hüququna malikdir. Çarterlərin bəzi proformaları tərəflərin razılığı ilə kanselling müddətinin uzadılması mümkünlüyünü və gəmi limana gələnə kimi müəyyən müddət ərzində fraxtedənin öz qərarı barədə məlumat verməsi öhdəliyini nəzərdə tutur.

*(Davamı var)*

## AİLƏ HƏYATINDA BÖHRANLI NÖQTƏ

**Amerikalı alimlər ilk illər xoşbəxt olan ailənin hansı mərhələdə dağıldığını müəyyən etməyə çalışıblar.**

Mütəxəssislər ailə münasibətlərində "qaynar nöqtəni" aşkar etmək üçün 50-57 yaşlarında 2 min qadın arasında sorğu keçiriblər. Onların 66 faizi sevərək ərə gediblər və nikahda xoşbəxt olublar. Amma 10 ildən sonra vəziyyət kökündən dəyişib. Uşağa qulluq, ərinə qayğı və evdəki işlərin ardıcıl olaraq balanslaşdırılması qadını cana yığıb. Bu mərhələdə ər-arvad arasında münasibətlər böhranlı nöqtəyə çatıb. 5 ildən sonra isə vəziyyət yaxşılığa doğru dəyişməyə başlayıb və mübahisəli vəziyyətlərin sayı azalıb.



Buna baxmayaraq, rəyi soruşulan qadınların fikrincə, cütlüklər əvvəlki xoşbəxtliyi tam qaytara bilməyiblər.

## MAYAKLAR OTELLƏRƏ ÇEVRİLƏCƏK

**İspaniyada mayakların otellərə və turizm infrastrukturunun digər obyektlərinə çevrilməsi ilə bağlı proqram həyata keçiriləcək.**

İlk belə otellər Balear adalarında yaradılacaq. Barbariya körfəzindəki mayakda isə oteldən savayı, muzey mərkəzi fəaliyyət göstərəcək.

**Xəbəri TASS verib.**



## YARIZARAFAT, YARIGERÇƏK

- Dost dar gündə, pul inflyasiya vaxtı tanınar.
- Dəvədən böyük fil niyə bəzən özünü dəvədən pis aparır?
- İnsanlara qanunla yalan danışa bilmək hüququ vermək lazımdır. Onda yəqin ki, çox az adam yalan danışacaq.
- Necə təqdim edilməsindən asılı olmayaraq əksər reklamların mayasında yalana oxşar nəsə var.
- Bir savab iş görməyə gücü, hünəri çatmayan hər gün yüz günah işi necə görür?
- Mərdi qova-qova namərd elədikləri üçün indi heç kim mərd olmaq istəmir?
- Pulu özündən çox sevən demək, başqası üçün yığır.
- Qəribədir, haqsızlıqla barışmadıqca, daha çox haqsızlıq görürsən.
- İtirmək istəmirsənsə, həmişə dostla dost, düşmənlə düşmən kimi davran.
- Əməl etmədiyin şeyi dinləməyə dəyməz.
- Cavabsız sual yoxdur. Sadəcə, cavabını bizim bilmədiyimiz suallar var.
- Hələ də bəzi adamlara çatmır ki, namərddən mərdlik, qorxaqdan cəsarət, yaltaqdan səmimilik, yalançıdan düzlük gözləyən sadəcə vaxt itirir.
- Dostlarımın "etibarını" gördən sonra heç bir düşmənimin dosta çevrilməyini istəmədim.
- Pulun əl çirki olduğunu deyənlər niyə pul üçün ən çirkli oyunlara da gedirlər?
- Yaxşılığın mükafatını Allah özü verir. Adamların əməllərinə baxanda adama elə gəlir ki, Allahın mükafatı heç kimə lazım deyil.
- Yalan niyə həmişə və hər yerdə doğrudan bir addım irəlidə olur?
- Qadınlar həqiqətən mələkdirlər. Qanadlarını biz sındırırıq.
- Bəziləri televizorda seriallardan başqa həyatda hər şeyə barmaqarası baxır.
- Mərdlə namərd, düzlə yalançı arasında hər kəs xarakterinə uyğun seçim edir.
- Koroğlunun vaxtında bir Koroğlu, 7777 dəli, bir Keçəl Həmzə vardı. İndi dəlilərin sayını deyə bilmərəm, amma nədənsə hara baxırsansa, gözə daha çox keçəl həmzələr dəyir.
- Deyirəm heç olmasa, "Koroğlu" stansiyasında düşənlər arasında Koroğluya oxşayan biri ola...
- Yorğan davasına son qoymaq üçün ən çox nə qədər yorğan gərəkdir?
- Yalan adamı uzağı bir müddət, həqiqət həmişə qoruyur.
- Bu qədər qaşqabağı yer süpürən ola-ola, küçələrimiz niyə natəmizdir?
- Bəzilərinin vaxtı olmadığı üçün fikirləşmədən danışır?
- Pul adamı xoşbəxt edir? Mən o qədər varlı bədbəxt tanıyıram ki!
- Düz hər yerdə keçir. Sadəcə bir az düşmənin artır.
- Maşınım olmasa da, piyadalardan heç vaxt xoşum gəlməyib. Xüsusən də, maşını olan "piyadalar"dan.

*Rasif TAHİROV*

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

– Mən dəfələrlə bunun şahidi olmuşam ki, qadın əzabişgəncəyə kişilərdən qat-qat dözümlü olur.

– Təsadüfən həkim deyilsiniz?

– Xeyr, ayaqqabı satıcısıyam.

***

Nevropatoloq xəstədən soruşur:

– Sizdə belə bir vəziyyət olurmu ki, səs eşidirsiniz, amma kimin və haradan danışdığını başa düşməyəsiniz?

– Həkim, lap tez-tez olur.

– Bəli, ağırdır! Belə hallar nə vaxt baş verir?

– Telefonla danışanda.

***

Professor kimya haqqında mühazirəsində müxtəlif turşuların xassələrini izah etdi:

– Diqqətlə baxın, mən indi bu qızıl onluğu içərisində adi turşu olan stəkana salacağam. Qızıl pul əriyəcək, ya yox?

– Əlbəttə, yox, - deyə tələbələrdən biri dərhal cavab verdi.

Professor dedi:

– Düzdür, bəlkə siz bunun səbəbini izah edəsiniz?

– Ona görə ki, qızıl pul ərisəydi, siz onu stəkana salmazdınız, - deyə tələbə bildirdi.

***

– Elə olur ki, mən də səhv edirəm.

– Bəli. Ancaq cənab rəis, siz dahiyanə səhvlər edirsiniz.

***

Bir dəstə oğru mühakimə edilirdi. Onların başçılarına ömürlük həbs cəzası verildi. Məhkəmənin sədri məsləhətçidən soruşdu ki, qalan oğrulara nə qədər həbs cəzası kəsilsin. Məsləhətçi əsnəyə-əsnəyə cavab verdi:

– Başçılarından üç il az.

***

Fermer onun yanında təcrübə keçən kənd təsərrüfatı texnikumunun tələbəsindən soruşur:

– Bütün heyvanlara nişan qoydun?

– Bəli.

– Çətin idi?

– İnək və atlarla yox, amma bal arıları məni əldən saldı.

***

Qəzadan sonra özünə gəlmiş sürücü soruşur:

– Mən haradayam?

Tibb bacısı cavab verir:

– Bura on yeddinci nömrədir

– Palatadır, yoxsa kamera?

***

Professor tələbədən soruşur:

– Sizə oğurluq imkanı versəydik, muzeydən nəyi oğurlayardınız - Rubensi, yoxsa Rafaeli?

– Çıxış qapısına hansı yaxın asılıbsa, onu, - deyə tələbə fikirləşmədən cavab verir.

## İZAHLI "KONSERT"

Bəxtsizlik - Nə dedim xətrinə dəydi,
Üzün məndən niyə döndü?
***
Razılıq - O, bu boyda bir cahanı yaradıb,
Yeri-göyü, asimanı yaradıb.
***
Ayrılıq - Ürək deyir ayrılığın,
Üzü dönsün bu dünyada.
***
Ehtiyat - Dedim qoşa gəzək, dedi tələsmə.
***
Vəzifə stolu - Əlçatmaz xəyala dönmüsən.
***
Müəllim - Gəl bir səndən xəbər alım.
***
Şagird - Dərsini kimdən almısan?
***
Aliment - Gözlədim yolunu həsrət içində,
Tükəndi taqətim, neçin gəlmədin?
***
Polis - Səni gördüm, əl götürdüm dünyadan.
***
Yaxşı gün - Gəl, ey mehri- məhəbbətim.
***
Vicdan - Gəlmişəm otağına, oyadam səni.
***
Müfəttiş - Nə yesəniz, mən verərəm,
Su verərəm, dən verərəm.
***
Maaş günü - Deyirlər ki, toy olacaq.
***
Tətil - Ay yordu, yordu, yordu,
Görək kim kimi yordu!
***
Yerlibaz - Sən haralısan, haralı, durna?
***
İmtahan - Ürəyim gup-gup edir.
***
Məhkəmə - Burda nitqim kəsildi,
Burda sözüm qurtardı.
***
Alverçi - Ay bəri bax, bəri bax.

*Rasif TAHİROV*

## KASIBLIQ İNSANI KÜTLƏŞDİRİR?

**Amerikalı alimlər bildirirlər ki, qazanılan pulun miqdarı təkcə insanın həyatının keyfiyyətinə yox, həm də onun əqli qabiliyyətinə təsir edir. Onların sözlərinə görə, insan nə qədər az qazanırsa, bir o qədər az dərk edir və sürətlə deqradasiyaya uğrayır.**

Tədqiqatçılar 400 nəfər könüllünün iştirak etdiyi eksperiment keçiriblər. Onları qazanclarının səviyyəsinə görə iki qrupa bölüb və təklif etdikləri vəziyyətdən çıxmağı xahiş ediblər. Məsələn, 1,5 min dolların sərf olunacağı avtomobilin gözlənilmədən xarab olması. Onlar paralel olaraq intellektual testləri də yerinə yetiriblər.

Nəticədə məhdud vəsaitə malik iştirakçıların əqli qabiliyyətləri daha imkanlı iştirakçılarla müqayisədə 13 maddə az olub. Bundan başqa, insanlar yenidən öz maliyyə durumları barədə fikirləşən vaxt da, bu göstərici, pisləşməkdə davam edib. Eyni zamanda, pul problemi ilə bağlı narahatçılığı dayanan vaxt insanın intellektual səviyyəsi yenidən yüksəlməyə başlayıb.

"Tədqiqat göstərir ki, biz çatışmazlıq hiss edən vaxt əqli qabiliyyətimiz aşağı enir. Bu, o demək deyildir ki, kasıb adamlar digərlərindən daha kütdürlər. Sadəcə olaraq, gündəlik borclarını necə bağlayacağı haqqında fikirləşməyə məcbur olan adam diqqətini həyatın digər aspektlərinə cəmləyə bilmir"- harvardlı iqtisadçı Senhil Mallaynatan qeyd edib.

Eksperimentlərin ikinci hissəsində gəlirləri ildə bir dəfə şəkər qamışı məhsulunun satışından asılı olan hindu fermerlər iştirak ediblər. Alimlər müəyyən ediblər ki, sövdələşmə müqaviləsi bağlayandan sonra onların İQ səviyyəsi 10 maddə yüksəlib.

## NİFRƏTİ YOX EDİR

**İngiltərənin Eşq və beyin funksiyalarının araşdırma mərkəzi maraqlı tədqiqat aparıb. Araşdırmaya görə, insanlar aşiq olarkən onların beynindəki nifrət duyğusu azalır və bəzi hallarda tamam yox olur. Eşq və nifrət arasındakı ən böyük fərq mühakimə və sağlam fikirdən ibarətdir. Mərkəzi beynin korteksinin böyük bir hissəsinin eşq əsnasında təsirsiz hala gəlməsindən insanlarda düşünmə qabiliyyəti nisbətən azalır. Nifrət edən adamın beyin hüceyrələrində iş zamanı işıq müşahidə edilmir.**

Araşdırmada qarşılıqsız sevdaya da yer verilib. Bildirilir ki, belə sevdaya düşənlərin beynində psixoloji həyata istiqamət verən sol beyin hüceyrələrinin funksiyaları azalır. Ayrıca onlarda qorxu duyğusuna nəzarət edən instinktlərin iş xarakteri də zəifləyir. Beləcə, həmin insanlar qorxusuz davrana, hər cür risketmə qabiliyyətinə sahib ola bilirlər.

Qeyd edək ki, beyin hüceyrələrinin pozulması ilə insanlar ictimai normaların xaricində davranış göstərirlər. Belə insanlar bir anın içində sərvətini, karyerasını, sahib olduğu hər şeyi atmağı bacarırlar.












# ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi sədrin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə,** anası

**Tuqva xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xəzər Dəniz Neft Donanmasının kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə,** anası

**Tuqva xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dəniz Nəqliyyatı Donanmasının kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə,** anası

**Tuqva xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Zığ" Gəmi Təmiri Zavodunun kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə**

**anasının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Bibiheybət" Gəmi Təmiri Zavodunun kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə**

**anasının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İstehsalat Xidmətləri İdarəsinin kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə**

**anasının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sosial İnkişaf İdarəsinin kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə**

**anasının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mərkəzi Dənizçilər Xəstəxanasının kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə**

**anasının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Dəniz Akademiyasının rəhbərliyi və professor-müəllim heyəti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə**

**anasının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi aparatının işçiləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə,** anası

**Tuqva xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xəzər Dəniz Nəqliyyat Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunun kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə**

**anasının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin iqtisadi məsələlər üzrə müavini **Cəlal Fərəcliyə**, anası

**Tuqva xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*BAŞ REDAKTOR*
Rasif İman oğlu
TAHİROV

ÜNVANIMIZ:
AZ 1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ
Baş redaktor
(050) 670-33-76,
Redaktor
(070) 252-39-02

*Qəzetin təsisçisi*
"Azərbaycan
Xəzər Dəniz
Gəmiçiliyi"
Qapalı Səhmdar
Cəmiyyətidir

Qəzet "Dəniz"
qəzetinin kompyuter
mərkəzində yığılmış,
səhifələnmiş və
"OL" MMC-də
çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 28